BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2011

UOT 7 (100)

# BÖYÜK BRİTANİYA İLƏ AZƏRBAYCAN ARASINDA ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN HÜQUQİ-SİYASİ ƏSASLARI (1991-2005-Cİ İLLƏR)

**E.A.QASIMOV**
***Azərbaycan Dillər Universiteti***
***qasimov 1969@mail.ru***

*Azərbaycan ilə Böyük Britaniya arasında elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın hüquqi-siyasi əsasları 1994-cü ildə Ümummilli lider H.Əliyevin Böyük Britaniyaya rəsmi səfərindən sonra yaradıldı. Səfərlərin gedişində Böyük Britaniya ilə elm, təhsil və mədəniyyət sahələrində əlaqələrin vəziyyəti müzakirə edildi, hüquqi-siyasi əsaslarını təşkil edən sənədlər imzalandı, perspektivləri müəyyənləşdirildi.*

**Açar sözlər:** inkişaf, elm, təhsil, mədəniyyət, əməkdaşlıq

SSRİ-nin süqutundan sonra beynəlxalq aləmə tam müstəqil bir aktor kimi inteqrasiya etməyə başlayan gənc dövlətlərdən biri də Azərbaycan Respublikası idi.

1991-ci ilin oktyabr ayında öz müstəqilliyini bəyan edən Azərbaycan Respublikası üçün beynəlxalq aləmə uğurlu inteqrasiya həyati vacib əhəmiyyət kəsb edirdi [1, 158]. Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan ilə Böyük Britaniya arasında elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın hüquqi-siyasi əsasları yaradıldı. Böyük Britaniya 1991-ci il dekabrın 31-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 11-də diplomatik münasibətlər qurdu [2, 53].

1992-ci ilin martında Böyük Britaniyanın xarici işlər və birlik naziri Duqlas Hoqq avqust ayında ingilis nümayəndə heyəti və digər rəsmi şəxslərlə Azərbaycanda səfərdə oldular [3]. Öz növbəsində Azərbaycan nümayəndə heyəti də İngiltərəyə səfər etdi. Səfər zamanı iki ölkə arasında təhsil sahəsində və Bakıda işgüzar ingilis dili kurslarının təşkil edilməsi haqqında razılıq əldə olundu.

1993-cü ilin oktyabrında Duqlas Hoqq Azərbaycana növbəti dəfə səfər etdi. Lakin bu illərdə iki ölkə arasında elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın hüquqi-siyasi əsasları yaradılmamışdı. Əməkdaşlığın funda-

mental hüquqi-siyasi əsasları Azərbaycan prezidenti Ümummilli Lider H.Əliyevin 1994-cü ildə Böyük Britaniyaya səfərindən sonra yaradıldı.

Azərbaycan Respublikasının prezidenti Oksford Universitetində oldu. Onun şərəfinə universitetin tanınmış alimlərinin iştirakı ilə rəsmi qəbul təşkil edilmişdir. Qəbul zamanı ikitərəfli sıx əlaqələrin yaradılması barədə fikir mübadiləsi aparıldı [7].

Universitetin rektoru bildirdi ki, o, Azərbaycanın intellektual və elmi inkişaf səviyyəsi barədə kifayət qədər məlumata malikdir və belə hesab edir ki, Azərbaycanla İngiltərə arasında elmi əlaqələr hər iki xalqın inkişafı üçün əhəmiyyətli ola bilər. Bundan başqa, tələbə mübadiləsi və ölkələrin müxtəlif universitetləri arasında elmi informasiya, fikir mübadiləsi, habelə aspirantların və yüksəkixtisaslı alimlərin ixtisasartırma kursu keçməsi prinsipial əhəmiyyətə malikdir. Universitet rəhbərliyinin fikrincə, Azərbaycan elminin nailiyyətlərindən eyni zamanda İngiltərə elmi də bəhrələnə bilər.

Heydər Əliyevin Böyük Britaniyaya səfəri zamanı həmçinin Azərbaycan Elmlər Akademiyası ilə bu ölkənin London Kral Cəmiyyəti arasında elmi əməkdaşlıq barədə memorandum imzalandı. Bu sənədə əsasən tərəflər elmin bütün sahələrində sıx əlaqələr yaratmalı, Kral Cəmiyyəti Fondundan gənc azərbaycanlı alimlərin bu nüfuzlu elm ocağında təcrubə keçməsi üçün vəsait ayırmalı idi. Tərəflər birgə elmi tədqiqat işləri aparmalı, müxtəlif sahələr üzrə seminarlar keçirməli idilər.

Qeyd etmək lazımdır ki, Respublikamızla sıx əməkdaşlıq edən Böyük Britaniyanın elm ocaqlarından biri olan London Kral Cəmiyyətinin əsası 1666-cı ildə qoyulub və o, təbiət elmləri üzrə akademiya funksiyasını daşıyır. Dünya miqyasında bir çox elm sahələrinin əsasını qoymuş dahi alimlər bu cəmiyyətin üzvü olmuşlar [7].

Keçirilən rəsmi görüşlər və bağlanmış müqavilələr iki ölkə arasında qurulan əlaqələrin möhkəm bünövrəsini təşkil edirdi. Aparılan söhbətlər və nümayəndə heyətinin təbliğati xarakterli fəaliyyəti Ermənistan tərəfinin, eləcə də erməni lobbisinin burada yaratdığı fikirləri alt-üst etmiş, Azərbaycan haqqında həqiqətlərin üzə çıxmasında böyük rol oynamışdı. Böyük Britaniya rəsmilərinin fikrincə, Azərbaycan prezidentinin səfəri bu ölkədə daha böyük marağa və diqqətə səbəb olmuşdur.

Azərbaycan prezidentinin Böyük Britaniyaya səfəri çox uğurla keçdi, hətta onun digər ölkələrə səfəri ilə müqayisədə yeni maraqlı xüsusiyyətlər və əlamətlər  müşahidə olundu. Bu, həm iqtisadi sahədə bağlanmış sazişlərdə hər iki dövlət arasında siyasi münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasında, həm də Böyük Britaniyanın Azərbaycana siyasi və iqtisadi sahədə kömək edəcəyinə dair açıq bəyanatlar verilməsində aydın ifadəsini tapdı.

Səfərin bütövlükdə yekunu barədə isə onu demək olar ki, Azərbaycan Böyük Britaniya üçün öz qapılarını yenidən açdı, və Azərbaycan Böyük Britaniya üçün yenidən kəşf olundu.

Heydər Əliyev 1994-cü il fevralın 23-də Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş imzaladı [4]. Sazişdə deyilirdi ki, Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti iki ölkə və onların xalqları arasında dostluq münasibətlərinin möhkəmləndirilməsini və inkişaf etdirilməsini arzu edərək, digər sahələrdə olduğu kimi, təhsil, elm və mədəniyyət sahələrində də mübadilələrin və əməkdaşlığın hər iki ölkənin xalqları arasında daha yaxşı qarşılıqlı tanışlıq və anlaşmaya zəmin yaradacağına əmin olaraq, razılığa gəldilər. Birinci maddədə deyilirdi ki, tərəflər hər iki ölkə arasında təhsil sahəsində əlaqələrin aşağıdakı vasitələrlə inkişafını təşviq edəcəklər: a) hər iki ölkədə təhsil sahəsində fəaliyyət göstərən şəxslər, idarələr və təşkilatlar arasında birbaşa əməkdaşlığın, əlaqələrin, mübadilələrin təşviq edilməsi və onlara imkan yaradılması; b) razılığa gələn digər tərəfin dilinin və ədəbiyyatının öyrənilməsi və tədrisinin təşviq edilməsi və ona imkan yaradılması; c) tədris metodikası və materialları, tədris proqramlarının inkişaf etdirilməsi və imtahanların keçirilməsi sahəsində əməkdaşlığın və mübadilələrin təşviq edilməsi və onlara imkan yaradılması; ç) tələbə və aspirantlara təqaüdlərin ayrılması, təhsil və tədqiqatların aparılması üçün digər vasitələrin təmin edilməsi.

İkinci maddədə qeyd olunurdu ki, tərəflər elm və texnologiya sahəsində iki ölkədə olan elmi-tədqiqat təşkilatları arasında birbaşa əməkdaşlıq daxil olmaqla qarşılıqlı maraq kəsb edən problemlər üzrə mübadilələrin və tədqiqatların inkişaf etdirilməsini təşviq edib onlara şərait yaradacaqlar.

Üçüncü maddədə deyilirdi ki, tərəflər ədəbiyyat, əyani sənətlər, ifaçılıq sənəti, kino, televiziya və radio, memarlıq, muzey, qalereya, kitabxana, arxiv və mədəniyyətin digər sahələrində birbaşa əlaqələri təşviq edib, müvafiq qurumlar arasında təcrübə mübadiləsi üçün geniş imkan yaradacaqlar.

Dördüncü maddəyə görə, tərəflərdən biri öz ərazisində bu sazişin məqsədlərinə yönəldilmiş fəaliyyətin aparılmasını təşkil etmək üçün digər razılığa gədən tərəfin mədəniyyət və informasiya mərkəzlərinin təsis olunmasını təşviq edib bu mərkəzlərə qanunvericiliyi və imkanları çərçivəsində köməklik göstərilməsinə imkan yaradacaq. «Mədəniyyət və informasiya mərkəzləri» ifadəsi məktəb, dil institutları, kitabxanalar, tədqiqat mərkəzlərinin və bu Sazişin məqsədlərinə xidmət edən digər təşkilatları əhatə edəcəkdir.

Beşinci maddəyə görə, tərəflər hər iki ölkədə mətbuat və nəşriyyat sahələri arasında birbaşa əməkdaşlığı təşviq etməli idilər.

Altıncı maddəyə görə, tərəflər milli irsin qorunması üzrə tədbirlər haqqında məlumat mübadiləsinə imkan yaratmalı idilər.

Yeddinci maddədə göstərilirdi ki, tərəflər qarşılıqlı surətdə müəlliflik hüquqlarının qorunmasını təmin etmək məqsədilə müvafiq hakimiyyət orqanları arasında əməkdaşlığı təşviq edəcək, daxili qanunvericiliklərinə uyğun olaraq istifadə hüquqlarını qoruyacaqlar.

Səkkizinci maddədə deyilirdi ki, tərəflər hər iki ölkə gənclərinin əlaqələrini və gənclər təşkilatları arasında birbaşa əməkdaşlığı təşviq edəcəklər.

Doqquzuncu maddədə tərəflər iki ölkə arasında turizmin inkişafını təşviq etmələri barədə öhdəlik götürürdülər.

Onuncu maddədə deyilirdi ki, tərəflər idman təşkilatları arasındakı əməkdaşlığı və hər iki ölkədə keçirilən idman tədbirlərində iştirakı təşviq edəcəklər.

On birinci maddədə deyilirdi ki, tərəflər bu sazişin əhatə etdiyi sahələrdə ölkələrin hər birində keçirilən seminar, festival, müsabiqə, sərgi, konfrans, simpozium və görüşlərdə iştirakı uyğun şəkildə təşviq edəcəklər.

On ikinci maddəyə görə, tərəflər bu sazişin əhatə etdiyi bütün sahələr üzrə qeyri-hökumət təşkilatları arasında birbaşa əməkdaşlığı və mübadilələri təşviq etməli idilər.

On üçüncü maddədə deyilirdi ki, bu sazişdə nəzərdə tutulan bütün fəaliyyət növləri razılığa gələn tərəflərin dövlətlərində qüvvədə olan mövcud qanun və qaydalara uyğun olmalı və həyata keçirilməlidir.

On dördüncü maddədə deyilirdi ki, Britaniya Şurası bu Sazişin yerinə yetirilməsində Böyük Britaniya və Şimali İrlandiya Krallığı hökumətinin əsas vasitəçisi olacaqdır.

On beşinci maddəyə görə razılığa gələn tərəflərin nümayəndələri lazım gələrsə və ya tərəflərdən birinin xahişi ilə bu sazişin həyata keçirilməsinə baxılması məqsədilə qarışıq komissiyada görüşməli idilər.

On altıncı maddədəyə əsasən bu saziş imzalandığı gündən qüvvəyə minirdi, beş il müddətində qüvvədə qalırdı. Tərəflərdən biri növbəti beşillik müddətin bitməsinə altı ay qalmış sazişi ləğv etmək arzusunu yazılı surətdə digər tərəfə diplomatik kanallarla bildirməzsə, onun qüvvədə qalma müddəti beş il uzadılmalı idi.

Böyük Britaniya hökumətinin rəsmi dəvəti ilə 1995-ci ilin fevral ayında orada səfərdə olan Azərbaycan Respublikasının təhsil naziri Lidiya Rəsulova Böyük Britaniya Ali Məktəblərinin vitse-kanslerləri və rektorları komitəsində qəbul edildi. Komitə 100-dən artıq ali məktəb rəhbərini birləşdirir, ali təhsilin problemlərini araşdırır, təhsil müəssisələrinə tövsiyə, sorğu, analitik informasiya və inkişaf yolları barədə məlumat verir. Görüş zamanı ikitərəfli maraq kəsb edən geniş fikir mübadiləsi aparıldı, əməkdaşlıq imkanları müzakirə edildi [8].

Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında imzalanmış elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığa dair dövlətlərarası sazişin həyata keçirilməsində Böyük Britaniyanın əsas təmsilçisi olan Britaniya Şurasının baş direktoru, Hans Azərbaycanda reallaşdırılan proqramın daha da genişlənməsinə böyük əhəmiyyət verərək Britaniya Şurası ilə Azərbaycan Təhsil Nazirliyi arasında əməkdaşlığa dair ikinci memorandumun imzalanacağına əmin olduğunu bildirdi. Aparılan danışıqlar zamanı memorandumun məzmunu dəqiqləşdirildi, tərəfləri maraqlandıran bəndlər üzrə ümumi razılıq əldə edildi.

Yeni sənədə əsasən Britaniya Şurası Bakıda daha bir tədris müəssisəsi açmalı idi.

Notingem-Trent Universitetinin nümayəndələri ilə keçirilmiş görüşdə Avropa Şurasının xətti ilə həyata keçirilən beynəlxalq Tempus/Tasis proqramı çərçivəsində həmin universitetin Azərbaycan İqtisad İnstitutu və Qərb Universitetində təhsil prosesinin inkişafına yönəldilmiş texniki kömək layihəsinin reallaşdırılmasında əlaqələndirici kimi çıxış etmək niyyəti rəsmən bildirildi. Layihənin ümumi dəyəri 1 milyon 300 min ekyu təşkil edirdi [8].

Böyük Britaniyanın Təhsil Departamentində təhsilin bütün pillələrini əhatə edən problemlər müzakirə edildi. Görüşdə parlament deputatı, Ali təhsil üzrə dövlət katibinin müavini Tim Bosuell və departamentin ibtidai, orta, peşə, ali təhsil üzrə idarələrinin rəisləri iştirak edirdilər.

Azərbaycan nümayəndə heyəti həmçinin İngiltərənin Ali Təhsilin Maliyyələşdirilməsi Şurasında oldu. Şura dövlət orqanı olmaqla büdcədən ali təhsilə ayrılan vəsaitin ali məktəblər arasında bölüşdürülməsinə cavabdehdir. Görüş zamanı tərəflər ali təhsilin maliyyələşdirilməsi prinsipləri, ali təhsil müəssisələrinin müstəqilliyi ilə dövlət büdcəsindən maliyyələşdirilməsinin daxili əlaqələri, universitet və kolleclərin özünü maliyyələşdirmə sahəsində həyata keçirdikləri tədbirlər haqqında fikir mübadiləsi apardılar. Azərbaycan tərəfinin təklifi ilə ölkədə bu sahədə aparılan işlərlə tanış olmaq üçün Şuranın ekspertlərinin Bakıya ezam olunması və təhsilin inkişafına yönəldilmiş maliyyələşdirmə prinsiplərinin tətbiqinə kömək göstərməsi məsələsi müzakirə olundu və ümumi razılıq əldə edildi.

Azərbaycan nümayəndələri Böyük Britaniyanın Ali Təhsilin Keyfiyyəti Şurasında da oldular. 1992-ci ildə yaradılmış şura bütün ali təhsil müəssisələrində təhsilin keyfiyyətini yoxlayaraq rəsmi dövlət orqanlarına – Təhsil Departamentinə, Ali Təhsilin Maliyyələşdirilməsi Şurasına və geniş ictimaiyyətə məlumat verir. Tərəflər təhsilin keyfiyyəti sahəsində həyata keçirilən tədbirlər və qəbul edilən sənədlər haqqında bir-birinə məlumat vermək və müntəzəm informasiya mübadiləsi aparmaq barədə razılığa gəldilər.

1998-ci ildə Britaniya Şurasının rəsmi dəvətinə əsasən təhsil naziri Misir Mərdanovun başçılığı ilə nümayəndə heyətinin Böyük Britaniyaya səfəri nəticəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Britaniya Şurası arasında əməkdaşlıq haqqında saziş və niyyət memorandumu imzalandı [5]. Bu Memorandum Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə təhsil sahəsində mübadilələr üzrə Mərkəzi Büro arasında keçirilmiş görüşün və fikir mübadilələrinin nəticəsində imzalanmışdı.

Səfər zamanı keçirilən görüşlərdə Britaniya Şurası tərəfindən təşkil edilmiş qarşılıqlı maraq cəlb edən aşağıdakı məsələlər müzakirə edildi: məktəblər və kolleclər arasında əlaqələr; ingilis dilinin tədrisi sahəsində yardım; müəllim və məktəb rəhbərlərinin mübadiləsi.

Memorandumu imzalamış tərəflər 1998-ci ilin may-dekabr ayları ərzində aşağıdakı tədbirlərin keçirilməsi haqqında razılığa gəldilər: təhsil sahəsində mübadilə üzrə Mərkəzi Büro Azərbaycanın məktəb və kollecləri üçün Böyük Britaniyada tərəfdaş məktəblərin axtarılmasında köməklik göstərəcəkdir; əsas diqqət ümumtəhsil sektoruna yönəldiləcəkdir; məktəblər arasında sabit və qarşılıqlı faydalı əlaqələr yaradıldıqdan sonra Mərkəzi Büro tərəfdaş tədris müəssisələri arasında eksperimental məktəb rəhbərləri mübadiləsi layihəsinə yardım məsələsinə baxacaqdır. Azərbaycan Təhsil Nazirliyi Azərbaycan Respublikasının Londondakı Səfirliyi vasitəsilə Azərbaycanda fəaliyyət göstərən Böyük Britaniya şirkətləri haqqındakı məlumatı həmin şirkətlərə Beynəlxalq təhsil layihələrinə sponsor yardımı üçün müraciət etmək məqsədilə təmin edəcəkdir; müvafiq fondların mövcud olduğu təqdirdə ingilis dili sahəsində birtərəfli konsultativ yardım proqramının həyata keçirilməsi məsələsi Mərkəzi Büro tərəfindən baxılacaqdır.

2003-cü il sentyabrın 24-də British Council-ın direktoru Marqaret Cek və Azərbaycan Respublikası təhsil naziri Misir Mərdanov tərəfindən British Council-in Müəlümlərin Təkmilləşdirllməsi (İNSETT) layihəsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasi təhsil nazirliyi və British Council arasında qarşılıqlı anlaşma memorandumu imzalandı [6].

Təhlildən belə bir nəticəyə gəlmək olur ki, şagirdlərin ingilis dili vərdişlərinin aşağı səviyyədə olmasına aparan əsas səbəb Azərbaycanda müəllimlərin çoxunun sovet dövründən qalma ənənəvi sinif təcrübə və strategiyalarından istifadə etməsi idi. Nəticənin maksimum dərəcədə səmərəli olması üçün Bakıda ikiillik intensiv pilot proqramı keçirilməsi qərara alınmışdır. Məqsəd ingilis dilinin tədrisində hal-hazırkı istiqamətləri əks etdirən və Azərbaycanda gedən təhsil islahatı proqramı ilə eyni xəttdə olan ingilis dili müəllimləri üçün Müəllimlərin Təkmilləşdirilməsi proqramını yaradıb həyata keçirməkdir.

Beləliklə, araşdırma göstərir ki, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra Böyük Britaniya ilə elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın ikitərəfli hüquqi-siyasi əsasları yaradıldı, əməkdaşlığın əsas istiqamətləri və formaları müəyyənləşdirildi. Azərbaycan eyni zamanda bu sahədə əməkdaşlığı nəzərdə tutan beynəlxalq konvensiyalara qoşuldu. Bütün bu sənədlərə uyğun olaraq Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında əməkdaşlıq həyata keçirildi.

## ƏDƏBİYYAT


1. Babayev H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Təhsil, 2009, 328 s.
2. Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996, 140 s.
3. Azərbaycan Respublikasının müstəqilliyini tanıyan və onunla diplomatik əlaqələr yaradan dövlətlərin siyahısı // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi, 1993-cü il.

4. Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş //Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari arxivi, 1994-cü il.
5. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Böyük Britaniya Şurası arasında əməkdaşlıq haqqında saziş və niyyət protokolu //Azərbaycan Respublikası Təhsil Nazirliyi beynəlxalq əlaqələr və koordinasiya idarəsinin cari arxivi, 1998-ci il.
6. Britaniya Şurasının müəllimlərin təkmilləşdirilməsi (İNSETT) layihəsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Britaniya Şurası arasında qarşılıqlı anlaşma memorandumu // British Council. Press relaese.
7. Aslanov A. Böyük Britaniya Azərbaycanı yenidən kəşf etdi. «Azərbaycan» qəz., Bakı, 1994, 1 mart, №41(805).
8. Azərbaycan Təhsil Nazirliyinin nümayəndələrinin Böyük Britaniyaya səfəri. «Azərbaycan» qəz., 1995, 23 fevral, №37 (1054).

## ПОЛИТИКО-ПРАВОВЫЕ ОСНОВЫ СОТРУДНИЧЕСТВА МЕЖДУ ВЕЛИКОБРИТАНИЕЙ И АЗЕРБАЙДЖАНОМ В ОБЛАСТИ НАУКИ, ОБРАЗОВАНИЯ И КУЛЬТУРЫ (1991-2005 ГОДАХ).

**Э.А.КАСУМОВ**

**РЕЗЮМЕ**

Статья посвящена взаимоотношениям в области науки, образования и культуры между Великобританией и Азербайджанской Республикой на принципах политико-юридических основ (1991-2005 годах). В Статье также говорится о межгосударственных отношениях, а также об истории заключения договоров и меморандумов.

**Ключевые слова:** развитие, наука, образование, культура, сотрудничество

## LEGAL AND POLITICAL BASES OF COOPERATION BETWEEN GREAT BRITAIN AND AZERBAIJAN IN THE FIELDS OF SCIENCE, EDUCATION AND CULTURE (1991-2005).

**E.A.GASIMOV**

**SUMMARY**

The article deals with legal-political (in the years of 1991-2005) cooperation between Great Britain and Azerbaijan in the fields of science, education and art. The article also elucidates interstate relations as well as the history of endorsed agreements and memorandums.

**Key words:** development, science, cooperation